*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 150-155* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.150*

# Robert Kuverin "İctimai yandırılma" romanında postmodern ironiyanın xüsusiyyətləri

**Xəyalə Cəfərova**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Universiteti
E-mail: khayala.aliyeva@au.edu.az

**Annotasiya.** Məqalə postmodern amerikan ədəbiyyatının nümayəndələrindən olan Robert Kuverin yaradıcılığına və xüsusilə onun "İctimai yandırılma" romanının postmodern ironik təhlilinə həsr olunmuşdur. 1966-cı ildən romanları işıq üzü görməyə başlayan Robert Kuver "İctimai yandırılma" əsərinin nəşrindən sonra məhşurlaşdıran romanlarındandır. Məqalədə Robert Kuverin romanda toxunduğu mövzuların aktuallığı diqqəti cəlb edir. Vaxtilə tarix səhnəsində birmənalı qarşılanmayan Yulius və Etel Rozenberq cütlüyünün məhkəmə hadisəsi yazıçıya bu mövzuya postmodern mövqedən müraciət üçün ilham mənbəyi olmuşdur. Romanda problemə ironik yanaşma öz əksini tapmışdır. Siyasi sistemin dəyərlərə vurduğu zərbə, kapitalist və kommunist ideologiya arasında sıxılıb qalmış insan obrazlarının dekonstruktiv mövqedən təhlili, bu iki paralellərin cəmiyyət həyatında yaratdığı xaos, sistem daxilində qarmaşanın analizi məqalənin əsas mövzusunu təşkil edir. Siyasi nizamın təmin olunması adı altında dövlətlərin insan həyatına ironik və tragikomik təsirinin postmodern xüsusiyyətləri məqalədə əks olunmuşdur.
**Açar sözlər:** Robert Kuver, "İctimai yandırılma", postmodern amerikan ədəbiyyatı, postmodern ironiya

**Məqalə tarixçəsi:** göndərilib – 13.05.2024; qəbul edilib – 27.05.2024

# Characteristics of postmodern irony in Robert Coover's novel "Public burning"

**Khayala Jafarova**
Doctor of Philosophy in Philology
Azerbaijan University
E-mail: khayala.aliyeva@au.edu.az

**Abstract.** The article deals with the works of Robert Coover, one of the representatives of postmodern American literature, and especially to the postmodern ironic analysis of his novel "Public Burning". Robert Coover, whose novels began to be published in 1966, is one of the novels that became popular after the publication of "Public Burning". The article draws attention to the relevance of the topics touched by Robert Coover in the novel. The court case of the Julius and Ethel Rosenberg couple, which was not received unequivocally on the stage of history, was a source of inspiration for the writer to address this topic from a postmodern point of view. An ironic approach to the problem is reflected in the novel. The main topic of the article is the impact of the political system on values, the analysis of human images trapped between capitalist and communist

ideologies from a deconstructive point of view, the chaos created by these two parallels in social life, and the analysis of confusion within the system. Postmodern features of the ironic and tragicomic influence of states on human life under the guise of ensuring political order are reflected in the article.
**Keywords:** Robert Coover, "Public burning", postmodern American literature, postmodern irony

**Article history:** received – 13.05.2024; accepted − 27.05.2024

## Giriş / *Introduction*

Dünya postmodern mədəniyyətində amerikan postmodernizmi özünəməxsus cəhətləri ilə seçilir, çünki bu cərəyanın vətəni məhz ABŞ olmuş, oradan da Avropaya və bütün dünyaya "ayaq açmışdır". 1950-60-cı illərdə ABŞ daxilində fərqli bir kulturoloji mühit var idi. Bu mühit bir nüvə rolunu oynayaraq, yeni fəlsəfi, estetik və fərqli düşüncə tərzinə açıq idi. Bu da əvvəlki psixo-kulturoloji fikrin ətrafında dolanaraq analizi nəticəsində qəbul olunan yeni mədəniyyət formasiyalarının, üsullarının, biçimlərinin və istiqamətlərinin meydana gəlməsinə səbəb olmuşdur.

## Əsas hissə / *Main part*

ABŞ-da postmodernizm dil və mənəvi dəyərlərin qadağalarını pozmuş, kanonik estetik formasiyaların sərhədlərini dağıtmış bitniklərin təsiri ilə yeni bir düşüncə tərzi və mədəniyyət forması olaraq təbii şəkildə davam etmişdir. Bu yolda Henri Miller və Valdimor Nabokovun xüsusi rolu olmuşdur. Bunu da qeyd etmək lazımdır ki, məhz ilk amerikan postmodernistləri "qara yumor" məktəbinin Con Bart, Tomas Pinçon, Donald Bartelm və s. kimi nümayəndələri olmuşdur. Zaman keçdikcə yeni postmodernistlər meydanda görülmüş və postmodern ədəbiyyatın qurulmasına, məktəb və cərəyan kimi formalaşmasında bilavasitə iştirak etmişdir. Robert Kuver məhz bu cərəyanın aparıcı simalarından biri olmuşdur.

Robert Kuver metatəhkiyə və hiberədəbiyyatın əsasını qoymuş, yaradıcılığında "metaədəbiyyat" anlayışını ən incə detalları ilə açmış postmodern yazıçılardan biri olmuşdur. Yazıçının romanlarının tədqiqatçılarından olan Ueyn Stenqelin qeyd etdiyinə görə, mövzu dairəsinə, üslubuna əsasən Robert Kuverin yaradıcılığına təsir edən yazıçılardan Corc Luis Borxes və Samuel Bekketin adını çəkmək olar [3, s.122]. Robert Kuver yaradıcılığı boyu müxtəlif səpkili mövzulara yeni bir biçimdə, fərqli rakursdan baxmağı üstün tutmuşdur. Əsərlərinin hər birində isə baxış bucağının özünəməxsusluğu ilə seçilmiş və fərqlənmiş postmodernistlərdən olmuşdur. Hələ 1990-cı illərdə gələcəkdə hipermətn vasitəsilə elektron ədəbiyyatın üstün tutulacağını da qeyd etmişdir. Robert Kuver "Brunistlərin mənşəyi" ("The origin of brunists", 1966), "Beynəlxalq beyzbol təşkilatı" ("The Universal Baseball Assosiation", 1968), "İctimai yandırılma" ("The public burning", 1977), "Brunistlərin qəzəb günü" (The Brunist day of wrath", 2014), "Qərbdən olan Hak" ("Huck out West", 2017) və s. kimi əsərlərin müəllifidir.

"İctimai yandırılma" ("The public burning", 1977) yazıçının ən məşhur əsəridir. Siyasi hakimiyyət, onun uzun qolu, bəzi insanların bu məsələyə laqeyd yanaşması kimi məsələlər əsərin qayəsini başa düşməyə kömək edir. Burada Cozef Makkartinin siyasi düşüncə fəaliyyəti ironik hədəf kimi seçilmişdir. İstehza da məhz bu vasitələrdən biridir. Prof. Qorxmaz Quliyev postmodern istehza ilə bağlı qeyd edir: "İstehza postmodern yazıçı və postmodernist oxucunu birləşdirən əsas vasitədir: yazıçı oxucuya ünvanladığı əsərinin bütün elementləri ilə həm özünü, həm də oxucunu rişxənd hədəfinə çevirir, oxucu da istehza ilə bunu qəbul edir" [2, s.255]. Roman Amerikanın nüfuzlu, heyranedici siyasi xadimlərindən olan Riçard Niksonun təhkiyəçi baxışı ilə izah olunur.

Əsər geniş tarixi konteksti əhatə edir və mərkəzində Culius və Etel Rozenberqin SSRİ-yə hərbi sirləri satmaqda şübhəli bilinməsi məsələsi durur. Burada həm siyasi sistemə, həm də tarixə istehzalı münasibət postmodern cizgilərlə öz əksini tapmışdır.

Sosial və siyasi sistemdə SSRİ və ABŞ arasında qlobal hərbi, geopolitik, iqtisadi, eyni zamanda texnoloji və ideoloji mahiyyət daşıyaraq 1946-cı ildən 1991-ci ilə qədər davam edən "Soyuq müharibə" dönəmində amerikalı Yulis və Etel Rozenberq casusluqda ittiham olunmuşdur. Bu dövrdə adıçəkilən cinayətdə həbs olunaraq edam olunan ilk sadə amerikalı vətəndaşlar olmuşdur. 1950-ci ildə "Venona" layihəsi vasitəsilə ABŞ hərbi agentliyi SSRİ agenturasının şifrələmə şəbəkəsini çökdürmüş, qarşı tərəfə məlumatları ötürən bir sıra casusları həbs etmişdir. Bu sırada həbs olunaraq istintaqa cəlb olunan və nüvə layihəsi ilə bağlı əsas xəbər mənbəyi sayılan alman mənşəli fizik Klaus Fuks sovet kəşfiyyatçısı olan Qoldun adını verməyə məcbur qalmışdır. Qold Qrinqlassın, o isə növbəsində Rozenberqlərin adını verərək informasiya ötürülməsində casus kimi iştirak etdiklərini qeyd etmişdir. Lakin Yulius və Etel Rozenberq digərlərindən fərqli olaraq, günahsız olduqlarını, bunun anti-kommunist və anti-semitik təxribat olduğunu əsas gətirərək günahlarının olmadığını məhkəmədə qeyd etdilər. Lakin şahidlərin ifadəsi əsasında onlar edam edilməli idi. Qərar isə yalnız prezident Harri Trumanın təsdiqindən sonra həyata keçirilə bilərdi. O isə öz növbəsində prezident səlahiyyətlərinin başa çatmaq üzrə olduğunu əsas gətirərək edam qərarını təsdiqləmədi. Rozenberqlər iki il Nyu-Yorkun Ossininq şəhərində yerləşən ciddi rejimli Sinq Sinq cəzaçəkmə müəssisəsində edam xəbərlərinin təsdiqini gözlədilər. Yalnız hakimiyyət başına keçən 34-cü ABŞ prezidenti Duayt Eyzenhauerin qərarı ilə onlar edam olundular. Uzun illər sonra isə məxfi saxlanılan "Venona" layihəsinin materiallarının bir hissəsi ictimailəşdirildikdən sonra onların casusluqda iştirak etməsi öz təsdiqini tapdı [4].

Rozenberq məhkəməsinin 1950-ci illərdə olmasına, 1974-cü ildə isə Riçard Niksonun rüsvayçılıqla istefa verməsinə baxmayaraq, əsərin ABŞ-ın 200 illiyini qeyd etmə ərəfəsində nəşr olunması ideyası birmənalı qarşılanmamışdır. Amerikalıların atəşfəşanlıqla bayram etdikləri bu dönəmdə ABŞ siyasi sistemini tənqid edən belə bir kitabı nəşr etmək ağlasığmaz addım sayıla bilərdi. Romanın 1975-ci ildə tamamlanmasına baxmayaraq, mövzusu və R.Kuverin bu mövzunu uydurulmuş və subyektiv şəkildə vermə üsulu, əlbəttə ki, nəşriyyatçılar tərəfindən rədd edilmişdi. Müəllif, nəhayət, çap etməyə razı olan naşiri tapdıqda əsərin nəşrinin 1977-ci ilə qədər uzadılması şərti ilə qarşılaşmışdı. Buna baxmayaraq, siyasi hakimiyyətə böhtan sayılacağı qərarı alınmış, bütün nüsxələrin aradan qaldırılması qərarı verilmişdi. SSRİ və ABŞ arasında gedən "soyuq müharibə" dönəmində çap olunan bu ədəbi-bədii nümunə Tomas Pinçonun "Göyqurşağının cazibəsi" ("The Gravity of rainbow") əsəri ilə eyni sırada gələrək, 1970-ci illərin ən çox satılan romanlarından olmuşdur.

II Dünya müharibəsi dövrü və sonrasında ağır psixoloji sarsıntı keçirən insanların iki ölkə arasında gedən "soyuq müharibə" dönəmində də az fərqlə oxşar təlatümlər yaşaması, mənəvi-dəyərlərin sarsıntısı baxımından entropiyadan, "sistem daxilində qarmaşa"dan əziyyət çəkməsi əsərdə əks olunmuşdur. Müəllif tərəfindən əsərdə cərəyan edən hadisələr ABŞ tarixini metafantastik üsullar və kaleydoskopik şəkildə təsvirdə verərək, şər qüvvələrə qarşı qurtuluşun mifik hekayəsinə çevrilmiş, siyasətə və dövlətə nisbətən daha az pislik edənlərin mənafeyə qurban verildiyi ideyası önə çəkilmişdir. Əsərin əsas təhkiyəçisi və Riçard Niksonun uydurma versiyası olan eyniadlı obrazı isə Robert Kuverin yaradıcılığında ən çoxölçülü personajdır: o, qəddar, iddialı, eqoist, lakin ümid-ləri, istəkləri və qorxuları olan insandır.

Əsərdə göstərilir ki, iyun ayının 17-də prezident Eyzenhauerin müxbirlər qarşısında çıxış etməyə, onların gözlədiyi xəbəri ictimaiyyətə çatdırmağa hazırlaşması ilə başlayır. Sovet İttifaqına atom bombasının sirlərini ötürərək vətənə xəyanətdə və casusluqda günahlandırılan Culius və Etel Rozenberq cütlüyünün bir neçə gündən sonra edam edilməsi gözlənilirdi. Hakim Uilyam Duqlasın hökmün ləğv edildiyini bildirməsi kütləvi təəccübə və rezonansa səbəb olur. Vitse-prezident Riçard

Nikson bu məlumatın verilməsi ilə hadisələrin gözlənilməz olduğunu və dönüş yaradan məlumat olduğunu prezidentə bildirir. Hakimin xəbəri verməsində səbəbləri var idi, çünki cinayətin törədilməsində təqsirləndirilən şəxslərə dair heç bir dəlil-sübut yox idi. Bunu da qeyd etmək lazımdır ki, dünya ictimaiyyəti Tayms meydanında keçirilməsi gözlənilən edamı barbar bir plan adlandıraraq həyata keçirilməsinə etiraz edirdi. Əsərdə bir-birinə zidd mövqelərdə dayanan iki simvolik obraz vardır: biri Sem dayı, digəri isə Fantomdur. Sem dayı uydurma folklor personajıdır və amerikan həyat tərzinin mühafizəkarı, qoruyucusudur. O, simvolik obraz kimi səriştəsiz şəkildə idarə olunan dövləti təmsil edir. Müəllif bu personaj vasitəsilə göstərməyə çalışır ki, həqiqət siyasi sistemin hiperprosesual fəaliyyəti nəticəsində və ritorik yalanların içində yoxa çıxmış, qurban verilmişdir. Müəllif soyuq müharibə qorxusuna və isteriyasına ironiya məqsədi ilə satirik üslubdan istifadə etmişdir. Fantom isə kommunizmi təcəssüm edilmiş, Şərin oğlu kimi Sem dayının rəqibi olaraq göstərilmişdir: o, amerikan həyat tərzinin düşmənidir və gələcək inkişafı təhdid edir. Kommunizmlə kapitalizmin qarşı-qarşıya qoyulması ideyasına Riçard Niksonun nitqində də ironik şəkildə rast gəlirik: “Sadəcə olaraq bir düşünün, mən uşaq olandan bəri nə qədər dəyişikliklər olmuşdur. Mənim yoldaşım Petin mətbəx cihazlarına bir baxın: kim belə yaxşı işləyən şeyləri nə iləsə əvəz etmək istəyər? Bu kommunistlər, sadəcə dəlidirlər. Hər dəfə açarı çevirib termostatı tənzimləyəndə, maşını işə salanda, təyyarəyə qalxanda, avtomatik qapılardan keçəndə, ayaqyolunda unitazın suyunu buraxanda və ya qrammafonların qiymətinin düşməsini izləyəndə Amerikanı daha da çox sevirəm” [1, s.183]. Sem dayı Riçard Niksona Rozenberq hadisəsi ilə bağlı dəlil-sübutu axtarıb tapmağı tapşırır. Dik isə bu işi nə qədər çox araşdırırdısa, bir o qədər ölkədə hökm sürən bu isteriyaya qapılır, Fantomun qorxusundan isə hər şey ona təhlükəli görünürdü. Hakimin Rozenberqlərin edamını ləğv etməsinə baxmayaraq, onlar məhv edildi.

Dik Nikson gecəsini gündüzünə qataraq işləyir, vaxtını kabinetində sənədlərin içində keçirir, hər hansısa bir dəlil-sübut axtarıb tapmağa çalışırdı. Əsərin bu hissəsində təhkiyəçi obraz haqqında oxucu yeni məlumatlar əldə edir. Məlum olur ki, Niksonun heç bir dostu yoxdur, qəddar siyasətçi olması ilə yanaşı, təhlükəli rəqib hesab olunur və tamamilə tənha insandır. Hər zaman yanlış anlaşılması bir yana, eyni zamanda özünü Linkolnla müqayisə etməyi sevən bir obrazdır. Ailəli və iki qızı olmasına baxmayaraq, özünü xoşbəxt hesab etmirdi. Araşdırma nəticəsində Etel Rozenberqlə özü arasında ümumi cəhətlərin olduğunu aşkara çıxarır: hər ikisi ailə həyatında özlərini tənha hiss edirlər, incənəti sevir, sənətə və teatra vurğun idilər, eyni zamanda arzularını yaşaya bilməmişdilər. Nikson Etelə qarşı uzaqdan da olsa, dərin hisslər bəsləyirdi. Edam günü Etellə şəxsən görüşmək üçün onun yanına gedir. Etel Niksonun təsəvvüründə canlandırdığı kimi deyildi, daha yaşlı idi və heç də yaxşı görünmürdü. Buna baxmayaraq onlar bir-birini çox yaxşı başa düşürdü. Edam zamanı gəldi. Nikson Tayms meydanına gələndə insanların ironiyalı gülüş və çağırış səslərini eşitdi. Lakin Nikson vəziyyəti öz xeyrinə çevirərək, amerikan həyat tərzinin mühafizə olunaraq qorunması yönündə çıxış etməyə başladı. Rozenberqlər edam olunduqdan sonra isə fiziki cəhətdən məhv olmuşdu, emosional çöküş yaşayırdı. Əsərin sonunda isə oxucu Sem dayının Niksona absurd, satirik və ironik münasibəti ilə qarşılaşır və roman bu sonluqla da bitir.

Robert Kuver romanda göstərir ki, ABŞ siyasi sistemi 3 nəhəng ideologiya ilə dövləti və xalqı idarə etməyə çalışır. Bunlar din, inanc və texnoloji inkişafla irəlidə olmağa çalışaraq özlərini təsdiq etməyə can atdıqları dünyəvi birincilikdir. Din və ümumi amala xidmət inancı yolu ilə insanları idarə etməyə və onların fikirlərini ümumi mərkəzə cəmləyərək dövlət üçün çalışıb inkişafını təmin etmələri məqsədini daşıyan ideologiyanı əsas vasitəyə çevirdilər. Tədqiqatçı A.İ.Lavrentyev “XX əsr amerikan romanında “Soyuq müharibə”: Robert Kuverin ulduz zolaqlı tragifarsı “İctimai yandırılma” məqaləsində göstərir: “Rozenberqlər cinayəti iki dəfə törətdilər: ilk dəfə onlar dünya üzərində öz ölkələrini texnoloji üstünlükdən məhrum etməklə müqəddəs atəşi oğurladılar və dövləti axmaq vəziyyətdə qoydular” [5, s.105]. Burada A.İ.Lavrentyev Rozenberqləri Prometeyə bənzətmiş, müəllifin odun “Olimp”dən oğurlanması düşüncə tərzinə ironik yanaşması fikrini irəli

sürmüşdür. Dünyəvi təhlükə sayılan atom bombasını bədii təzad yaradaraq şirin tortla müqayisə etmiş, siyasi təhlükə anında dünyanı onunla qorxudaraq gücünü göstərən ölkənin bir gün özünün də bu faciə ilə üz-üzə qala biləcəyini xatırlatmışdır. Bununla da bu geopolitik siyasəti dərin mənası ilə ironik durum və tragik komediya kimi qiymətləndirmişdir: "bəziləri iddia edirlər ki, Amerikanın komediyalara tort atmaq sevgisi atom bombasının yaradılmasına gətirib çıxartdı. Bu, doğru ola bilər, bəlkə də əksinə, amma istənilən halda bu, bir-birinə dost olmayan xalqlar arasında mümkün təhlükənin olması ilə bağlı mövcud çaxnaşmanı heç cür izah edə bilməz: bu ki janrın əsas qanunudur, hər bir kremli tortun özündən sonra bir başqası gəlir və atan adam özü də başqası tərəfindən üzünə atılan tortun gələcəyini gözləməlidir" [1, s.452].

Robert Kuver dekonstruksiyadan istifadə edərək Rozenberq cütlüyünün günahsız edam olunması ilə bağlı səhnəni təqdim edərkən bu dəlil-sübutsuz prosesi ictimai karnavala çevirmişdir. Müəllif qeyd etmişdir ki, Rozenberqlərin edam qərarına dair heç bir fakt ortaya qoyulmamış, cütlük dövlətin və ictimaiyyətin arasında yayılan isteriyaya əsasən edama məhkum olunmuşdur: "Onları sübuta dayanaraq yox, əhvala əsasən mühakimə edirlər" [1, s.464]. Amerikan hakimiyyətini tənqid edərək Sem dayının Niksonla söhbətində amal və ideologiya uğrunda atılan addımları pərdələməklə yazıçı öz dekonstruktiv mövqeyini ortaya qoyur: "Cəmiyyəti birlik halında saxlamaq asan deyil, zarafat deyil, nizam öz-özlüyündə olan bir şey deyil, sən ki bunu yaxşı bilirsən, dostum. Və bir çox insanlar qurban verilmişdir ki, bu, təbii kimi görünsün, qaydalar belədir – amma heç kəsə bu amal uğrunda Tayms meydanında yerləşən səhnədə ölmək qismət olmur" [1, s.531]. Ölümə və öldürülməyə, cinayətə və cinayətin törədilməsinə ironik yanaşma Xeyir və Şərin mübarizə ruhunda verilməsi, insanların və ümumən amerikan cəmiyyətinin postmodern karnaval əhvalı burada geniş ironik şəkildə qarşı-qarşıya qoyulur. Burada motivlərin, mövqelərin, düşüncə tərzinin, insan ölümünün və varlığının bir-biri ilə çulğalaşması əsərin bütün mahiyyətini ortaya qoymuş olur: cinayət və onun cəzasının belə bir təqdimatı isteriyanın karnaval yolu ilə istəyinə çatmasına, "əyləncəli" bitməsinə gətirib çıxaracaqdı, cəmiyyət hakimiyyətdən qorxacaq və bundan sonra çəkinəcəkdi. Müəllif siyasətə belə bir ironiya ilə yanaşır. Hakimiyyət əlində bayraq kimi istifadə etdiyi siyasi üsulların hamısına "xəyanət etmişdir". Belə ki, siyasi idarəetmə dinin qaydalarını pozaraq insana ölüm hökmü vermişdir, halbuki din Allahdan başqa, heç kəsə bu ixtiyarın verilmədiyi hökmünü çıxarmışdır; inancın meyarlarına zərbə endirmişdir, çünki cəmiyyət artıq dövlətdən ehtiyat edəcək, hər an təhlükədə olduğu qənaətinə gələcəkdir və texnoloji inkişaf insan həyatına funksional xidmət etməsindən başqa, onun öldürülməsində Rozenberqlərin edam olunduğu elektrikli oturacaq kimi yeni maşınların yaranmasına səbəb olacaqdır.

## Nəticə / *Conclusion*

Beləliklə, müəllif postmodern üsullardan istifadə edərək romanı fars janrı ilə birləşdirmişdir. Müxtəlif poliformalardan istifadə edərək mövzuların ironik şəkildə oxucu düşüncəsində oyun qurur, onun təhlil qabiliyyətini artırır, ontoqonist vasitələri seçməklə ciddi problemləri qoyur. Əsərin sonunda isə obrazların sonluğu absurd vəziyyətlə insan təxəyyülündə absurd və komik şəkil alır. İroniya Robert Kuverin "İctimai yandırılma" romanında cəmiyyətin, onun bütün fəaliyyət sahələrinin, əsas da siyasət yönündəki mövqeyinin qoyulmasında tətbiq etdiyi əsas postmodern forma olmuşdur.

## Ədəbiyyat / *References*

1. Coover, R. The Public burning. – New York: Gove Press, 1998, – 544 p.
2. Quliyev, Q. Ədəbi cərəyanlar və istiqamətlər. Monoqrafiya. – Bakı: OL NPKT, 2019, – 260 s.

3. Stengel, Wayne B. (2001). “Robert Coover”. In Fallon, Erin; Feddersen, R.C.; Kurtzleben, James; Lee, Maurice A.; Rochette-Crawley, Susan (eds.). A Reader's Companion to the Short Story in English. Routledge.
4. Дегтярев, К., Колпакиди А. Внешняя разведка СССР. – Москва.: Яуза Эксмо, 2009. – С. 121, 155-156, 196-201. – 733 с.
5. Лаврентьев, А.И. Эстетика «холодной войны» в американском романе XX века: звездно-полосатый трагифарс Роберта Кувера «Публичное сожжение» // Вестник Удмуртского университета. Сер. История и филология, 2008. – Вып. 3.

## Особенности постмодернистской иронии в романе Роберта Кувера «Публичное сожжение»

**Хаяла Джафарова**
Доктор философии по филологии
Университет Азербайджан
E-mail: khayala.aliyeva@au.edu.az

**Резюме.** Статья содержит анализ творчества одного из представителей постмодернистской американской литературы Роберта Кувера, и в особенности постмодернистской иронии в его романе «Публичное сожжение». Романы Роберта Кувера начали выходить в свет с 1966 года, и большую известность писатель получил после опубликования романа «Публичное сожжение». В статье привлекает внимание актуальность затронутых тем в романе. Поводом к написанию романа послужил неоднозначно встреченный на исторической арене прошедший судебный процесс над парой Юлиус и Этель Розенберг, изображённый с постмодернистской позиции. Эта проблема в романе изображена с ироническим подходом. Основную тему статьи составляет анализ деконструктивной позиции в образах людей, оказавшихся в тисках между капиталистической и коммунистической идеологиями, нанесённый удар по ценностям политической системы, образовавшийся от этих параллелей хаос в жизни общества, беспорядок внутри системы. В статье иронические и трагикомические особенности постмодернизма нашли отражение в показе воздействия стран на жизнь людей под видом обеспечения политического порядка.
**Ключевые слова:** Роберт Кувер, «Публичное сожжение», постмодернистская американская литература, постмодернистская ирония